# Elm, maarif və söz haqqında

Bir elmi öyrənmək istədikdə sən,
Çalış ki, hər şeyi kamil biləsən.
Kamil bir palançı olsa da insan,
Yaxşıdır, yarımçıq papaqçılıqdan.

**Nizami**

Böyük şairləri də, ustadları da ancaq bilik və xalq yetirə bilər.

**M.Ə. Sabir**

Heç kəslə ədəbsiz danışma ki, sən,
Axırda utanıb üzr istəyəsən.

**Nizami**

Ürəkdən gələn söz həmişə ürəklərə yol tapar.

**Nizami**

Tez deyib peşman olmaqdansa, gec demək məsləhətdir.

**A. Bakıxanov**

Əgər söz olmasaydı, mövcudatı tanımaq olmazdı.

**F. Nəimi**

Cəbhədə qılınc, məclisdə gözəl nitqə malik olanlar qəhrəmandır.

**M.S. Ordubadi**

Əvvəlcə fikirləş, sonra danış, sənə «sus» deməmiş, özün sus.

**Sədi**

Başqasının sözünü kəsib danışmaq öz qanmazlığını etiraf etmək deməkdir.

**Sədi**

Elmdə geniş bir yol yoxdur və ancaq o adam elmin parlaq zirvəsinə çata bilər ki, yorulmaqdan qorxmayıb, onun daşlı-kəsəkli cığırları ilə dırmansın.

**K. Marks**

Elm üçün arxayınçılıqdan və yerində saymaqdan təhlükəli heç nə yoxdur.

**V.İ. Lenin**

Heç nə bilməyən və bilməyə çalışmayan adam çox bədbəxtdir. Çünki ona iki bədbəxtlik birdən üz vermişdir.

**Aristotel**

Kitab təfəkkürün yorulmayan qanadlarıdır.

**Aybek**

Ədəbiyyat – xalqın şüurudur, onun mənəvi həyatının diriliyidir.

**V.A. Belinski**

Kitablar olmasaydı, mən səfalət və alçaqlıq içində qərq olardım.

**M. Qorki**

*Toplayanı: A. Mirzəzadə*